"Nigar Rəfibəylinin 100 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 4 mart 2013-cü il tarixli, 2764 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan poeziyasının tanınmış nümayəndəsi, xalq şairi Nigar Rəfibəylinin 100 illik yubileyinin keçirilməsinə dair Təhsil Nazirliyinin tədbirlər planı təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan MR təhsil naziri, rayon, şəhər təhsil şöbələrinin, idarələrinin müdirləri, ali, orta ixtisas və nazirliyin birbaşa tabeliyində olan ümumtəhsil müəssisələrinin rəhbərləri tədbirlər planının icrasını təmin etsinlər və görülmüş işlər barədə 15 oktyabr 2013-cü il tarixinədək Nazirliyə məlumat versinlər.

3. İctimaiyyətlə əlaqə şöbəsi (B. Hüseynzadə) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və tədbirlər planı ilə birlikdə nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

4. Ümumi şöbə (X. Fərəcov) əmr və tədbirlər planının çoxaldılıb yerlərə göndərilməsini təmin etsin.

5. Əmrin icrasına nəzarət nazir müavini Q. Novruzova həvalə olunsun.

***Misir MƏRDANOV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***11 aprel 2013-cü il***
***№501***

---

**Əlavə:**

Azərbaycan poeziyasının tanınmış nümayəndəsi, xalq şairi Nigar Rəfibəylinin 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar Təhsil Nazirliyinin Tədbirlər planı